# Şəhidin ruhu o zaman rahat olur ki...

***–Şəhid adı çəkiləndə, ilk növbədə, onun valideynləri, yaxınları gəlib dayanır gözlərim önündə. Səmimiyyətimə inanın, bir anlığa özüm oluram şəhid atası. Ağır, sözlə ifadə oluna bilməyən o dəhşətli yük gəlir qonur çiyinlərimə. Sanki qəddim əyilir, nitqim tutulur, əllərim əsir, gözlərimə qaranlıq çökür...***

***Məmməd Məmmədov bunları deyib ayağa qalxdı, pəncərəyə yaxınlaşıb bir qədər aralıda, fəvvarələrin yanında şirin-şirin söhbət edən 3-4 nəfər orta yaşlı kişini göstərib “bax, bunlar da şəhid atası ola bilərdi. Siz də, mən də, bir başqası da...”– dedi.***

Hiss edirdim ki, rayon icra hakimiyyətinin başçısı əməlli-başlı həyəcanlanıb, çox təsirlənib... Bir-bir adlarını çəkməyə başladı. Qarşısındakı siyahıya qətiyyən baxmırdı. Valideynlərini tanıyırdı, kimin hansı kənddən olduğunu bilirdi, harada vuruşduğunu, hansı şəraitdə şəhid olduğundan xəbərdar idi.

Bilmirəm, digər şəhər və rayonlardan fərqli olaraq Tovuz rəhbərinin hələ Vətən müharibəsi başlamazdan iki ay qabaq, iyulda sərhəddə baş verən hadisələrin bir növ iştirakçısına çevrilməsinin, ilk şəhidləri qarşılayıb yola salmasının təsiri idi, ya nə idi, torpaq uğrunda canlarından keçənlərin hamısının adlarını çəkmək istəyirdi. Sanki qorxurdu ki, birdən kimisə unudar:

– Xəyyam Daşdəmirov, Vüqar Sadıqov, İlqar Mirzəyev, Anar Novruzov, Namiq Əhmədov, Polad Həşimov…Aralarında sıravi əsgərdən tutmuş generala kimi var.Tovuzun sərhədlərini qoruyarkən, düşmənin xain hücumlarının qarşısını alarkən ilk şəhid olan oğullarımızdır. Məlum iyul döyüşləri zamanı burada 12 şəhid versək də düşmənin belini qırdıq və onlar bizim nəyə qadir olduğumuzu gördü. Həyətində xain gülləsinə tuş gələn 76 yaşlı Ağdam kənd sakini Əziz Əzizov da şəhiddir. Ümumiyyətlə, mən heç vaxt şəhidin hansı kənddən, hansı şəhərdən və ya rayondan olmasını soruşmuram. Çünki onun bir adı var: Şəhid! Qanı 30 il həsrətində olduğumuz torpağa qarışıbsa, o, artıq müqəddəsləşib, ilahi bir varlığa çevrilib. Artıq nə yaşı, nə mənsub olduğu bölgə, nə peşəsi, nə də rütbəsi önəmli deyil. O şəhiddir!

…Rayon icra hakimiyyətinin ikimərtəbəli inzibati binasının dəhlizlərində sakitlikdir. Amma elə ki, hansısa qapını döyüb içəri keçdin, əməkdaşın telefonda kiminləsə danışdığını və yalnız “şəhid, şəhid anası, şəhid atası, şəhid bacısı” sözlərini eşidəcəksən.

– Siz nə danışırsınız?! Məmməd müəllim onun əmrini həmin gün verib yola salar.



Tapşırıb ki, istər şəhid ailəsinin üzvü olsun, istərsə də qazi, icra hakimiyyətinə gəlib çıxırsa, heç bir dəqiqə də gözləməməli, həmin an qəbul edilməli, problemi həll olunmalıdır...

Bu sözləri rayon icra hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Fərman Qurbanov “elə olubmu ki, hansısa məsul işçiniz şəhid ailəsindən kimisə qəbul etməsin?” sualıma cavab verərkən dedi. Sonra da maraqlı bir əhvalat danışdı. Dedi ki, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi yaradılsa da başçı hər həftə digər şöbələrin hesabatını dinləyir. Şəhid ailələri və qazilərlə bağlı kim konkret nə iş görüb? Məsul işçilərdən biri qayıtdı ki, “Məmməd müəllim, inanın ki, mən o şəhid anasının bütün nazı ilə oynamışam və lazım gəlsə, yenə oynayacağam...” Kaş siz həmin anda orada olaydınız və görəydiniz ki, əməkdaşın, hətta, sözün yaxşı mənasında işlətdiyi həmin “naz” sözünə görə onu nə günə qoydu.

– İstəyirəm balamın məzarı üstündə çardaq da olsun...

– Baş üstə, iki günə hazır olacaq...

– Baş daşındakı bu şəkili istəmirdim, atası mənə demədən verib, pozsunlar ayrısını vursunlar...

– Baş üstə, təzədən işləyərlər...

– Yalnız uşaq bağçasında işləmək istəyirəm...

– Baş üstə, tapşıraram sabahdan işə çıxarsınız...

Bəli, artıq bir neçə aydır ki, rayon icra hakimiyyəti başçısının, aparatın digər məsul işçilərinin, idarə, müəssisə və təşkilat rəhbərlərinin, hüquq-mühafizə orqanları əməkdaşlarının belə dialoqlar zamanı leksikonunda daha çox işlətdiyi söz, ifadə, deyim bunlarddır.

Şəhid Pərviz Nağıyevin evinə gəlmişəm. Atası Güloğlan kişi evə keçmədən həyətdəki çardağın altındakı iri stolun arxasında əyləşmək istəyimizi görüb təkid etmədi. Üz-gözünü ağarmış saçsaqqalı örtmüş bəstəboy, nurani şəhid atası üzümə baxıb sakitcə “axır ki, tapıldı” deyib gözlərini bir nöqtəyə zillədi. Heç birimiz bir müddət danışmadıq. Yadıma hələ keçən il, müharibə başa çatdıqdan bir müddət sonra rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədovla olan söhbətimiz düşdü:

–Tovuz ikinci Qarabağ müharibəsində 66 şəhid verib. Yalnız bir nəfərin – Pərviz Nağıyevin nəşi hələ də tapılmayıb. Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşən və bir müddətdən sonra şəhid olduğu bilinən, müddətdən artıq həqiqi hərbi xidmətdə olan 29 yaşlı bu hərbi qulluqçunun valideynlərinin üzünə baxa bilmirəm. Demişəm gəlməyin, tapılan kimi özüm xəbər verəcəyəm. Özlərinə də demişəm. Bilsəm ki, hardadır, inanın özüm gedib gətirərəm. Təki valideynləri rahatlıq tapsınlar…

İndi Güloğlan kişi “axır ki, tapıldı” deyəndə bildim nəyi nəzərdə tutur. Uzunmüddətli axtarışdan sonra tapılan oğlunun nəşi bu günlərdə Tovuz şəhər qəbristanlığında torpağa tapşırılıb, ruhuna dualar oxunub, məzarı üstünə əklillər və tər qərənfillər qoyulub. Deyir ki, oğlum böyük təntənə, hörmət-izzətlə dəfn edildi. Vida mərasimində rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, hərbçilər, ictimaiyyət nümayəndələri iştirak etdilər. Xatirəsinə yaylım atəşi açıldı, üçrəngli Azərbaycan bayrağı təntənəli şəkildə mənə təqdim olundu…

Güloğlan kişi bunları mənə danışdıqca bir kənarda, əlləri qoynunda dayanıb sakitcə bizə qulaq asan Sədaqət xanım dözə bilmədi, hönkür-hönkür ağladı və sonra da qara kələğayısının ucu ilə göz yaşlarını silib “gecələr yerimə girdikdən sonra için-için ağlayıram ki, balamın yadigarları – 4 və 5 yaşlı övladları, mənim nəvələrim görməsinlər. Təsəllim isə odur ki, Pərviz 30 il həsrətində olduğumuz bu torpaq uğrunda canından keçib, adı igidlər sırasına yazılıb. Vaxt gələcək onun balaları öz ataları ilə fəxr edəcəklər”– dedi.

Güloğlan Nağıyev iki aya yaxındır Tovuz subertazian quyularının istismarı idarəsində işə qəbul olunub. Hətta ilk maaşını da alıb. İş yeri də düz evlərinin yanındadır. Çox razılıq edir. Deyir sağ olsunlar, istər rayon icra hakimiyyəti, istərsə də digər təşkilatlar, laqeyd olmadılar, arzumu nəzərə aldılar, kömək göstərdilər.

–Bu ölkədə yaşamaq da, torpaq uğrunda canından keçmək də şərəfdir. Çünki insanın qədirqiymətini bilirlər. Dövlətimiz, Prezidentimiz, Mehriban xanım şəhid ailələrinə elə bir diqqət və qayğı nümunəsi göstərirlər ki, itirdiklərin səni yandırıb yaxsa da, istər-istəməz “Vətən sağ olsun” deyirsən.

Şəhərdəki “Qərənfil” körpələr evi-uşaq bağçasındayam. Öyrənmişəm ki, şəhid Seymur Mehdiyevin anası Nüşabə xanımı burada işə götürüblər. Amma onu yerində tapmıram. Bağçanın müdiri deyir ki, vacib işi olduğu üçün yarım saatlıq icazə alıb. Gözləyirəm və bu müddətdə şəhid anası haqqında bəzi məlumatlar əldə edə bilirəm. “Yarımsaatlıq icazə”nin də necə deyərlər, sirri açılır. Sən demə, Nüşabə xanımın daha bir oğlu var və ana hardansa eşidib ki, Seymur kimi o da gizlincə, evdə demədən könüllü şəkildə əsgər getmək istəyir. Elə Nüşabə xanım da icazəni ona görə alıb ki, hərbi komissarlığa gedib bu xəbəri dəqiqləşdirsin.

Bir azdan özü də gəlib çıxır. İcazəsinin məqsədini demədiyi üçün biz də üz vurmuruq. Hiss olunur ki, saçlarına vaxtından tez dən düşüb, xeyli hissəsi ağarıb.

– Bunlardır məni yaşadan, deyib o tərəf–bu tərəfə qaçışan körpələri göstərir,– sağ olsunlar icra hakimiyyətindəkilər, bağçanın rəhbərliyi, imkan yaratdılar ki, həmişə arzusunda olduğum bir işlə məşğul olum. Elə bil ki, Seymur şəhid olduqdan sonra uşaqlara daha çox bağlanmışam. Evdə dayana bilmirəm. Halbuki 95 yaşlı qaynatama da baxıram. Elə bağçada da öz xahişimlə yarım ştat işləməyim bununla əlaqədardır. 95 yaşlı adam körpədən də körpədir, gərək bütün qayğılarını çəkəsən.

“İki oğlumdan biri Vətən yolunda şəhid oldu. Lazım gəlsə o biri oğlumu da qurban verərəm. Tək Vətənimin torpaqları azad, firavan olsun, düşmənin izi-tozu da qalmasın” Nüşabə xanımın dediyi sözləri, fikirləri başqa bir evdə də eşidirəm və düzü, həm qürurlanır, həm də kövrəlirəm. Özlüyümdə düşünürəm: məgər bu xalqa qalib gəlmək olardı?! İnsanlarımızın birliyi, mətinliyi, ən çətin anlarda bir yumruq kimi birləşməyi, dözümlü olmaları, nikbinliyi adamı heyran edir.



Şəhid Röyal Aslanovun evində olarkən keçirdiyim bu hisslər uzun müddət xatirimdən silinməyəcək. Onun da anası İlhamə Aslanova RİH başçısının köməyi ilə şəhərdəki 3 saylı körpələr evi-uşaq bağçasına işə düzəlib. Çox razılıq etdi. Dedi ki, bircə dəfə müraciət etdim və tez də arzuma çatdım. Məmməd müəllim çox xeyirxah, həddindən artıq diqqətcil, həm də kövrək adamdır. Bunu bizim ailənin üzvləri gördü və bildi.

Şəhidin atası Elzar Aslanov da həyat yoldaşının dediklərini təsdiq edirmiş kimi “sağ olsunlar, bizi darıxmağa qoymurlar”– dedi.

...Tovuzda şəhid ailələrinin sosial problemlərinin həlli, xüsusilə, işlə təminat məsələlərinə xüsusi önəm verilir. Təbii ki, hələlik hamının arzusuna, istəyinə nail olmaq mümkün deyil. Amma artıq bu işdə bir sistem yaradılıb. Rayon icra hakimiyyətinin iş yerləri haqqında tam məlumat əldə etməsi və buna nəzarəti gücləndirməsi, şəhidlərin ailə üzvlərinin ixtisasına uyğun iş yerlərinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər öz səmərəsini verir. Məsələn, Dondar Quşçu kəndinin 3 şəhidi olub və artıq onlardan iki nəfəri–Ruslan Quliyevin və Əmrah Əliyevin həyat yoldaşları həmin kənddəki körpələr evi-uşaq bağçasında işlə təmin olunublar.



Ümumiyyətlə, rayonda uşaq bağçalarında işləmək arzusunda olan şəhid ailəsi üzvləri daha çoxdur. Maraqlı, həm də sevindirici faktdır ki, rayon icra hakimiyyəti onların böyük əksəriyyətinin arzusunu yerinə yetirmişdir. Şəhid Elbrus Yusifovun həyat yoldaşı Ağdam kənd uşaq bağçasında, şəhid Münasib Yusifovun bacısı 2 saylı Tovuz şəhər körpələr evi-uşaq bağçasında, şəhid Vüqar Əkbərovun bacısı “Qərənfil” körpələr evi-uşaq bağçasında, şəhid Ceyhun Mirzəyevin anası Əyyublu kənd uşaq bağçasında, şəhid Nəcməddin Bədirovun anası Düz Qırıqlı kənd uşaq bağçasında işə götürülmüşlər.

İcra hakimiyyətində şəhid ailəsi üzvlərinə “get sabah gəl”, “münasib iş yoxdur” kəlmələrini eşitmək qeyri-mümkündür. Rayonda təkcə icra hakimiyyəti aparatı deyil, bütün idarə, müəssisə və təşkilatlar, prokurorluq, polis orqanları bu işlərə cəlb olunublar. Kimin harada, nəyə gücü çatırsa şəhid ailəsi üzvünə təklif edir...

Bax, beləcə şəhid Asim Əliyevin anası artıq Düz Qırıqlı kənd musiqi məktəbində işləyir. Şəhid Orxan Eminalıyevin qardaşı Tovuz Suvarma Sistemləri İdarəsində, şəhid Mustafa Hüseynovun, şəhid Samiq Fərzəliyevin, şəhid Elmar Şirinovun və bir çox başqalarının qardaşları, bacıları yol-istismar idarəsində, orta məktəblərdə işlə təmin olunublar.

Şəhidin ruhu o zaman rahat olur ki, onun ailəsində maddi-mənəvi sıxıntı, digər problemlər olmur. Həsrətində olduğumuz o torpaqları bizə qaytaran, qanı o torpağa qarışan igid oğullarımızın ruhu qarşısında baş əyiriksə, ilk növbədə, onun ailəsini gözlərimiz önünə gətirməliyik. Nə yaxşı ki, Tovuzda bunu gördüm, duydum və müşahidə etdim...

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***